# Almaniyada professor adını qazanmış ilk azərbaycanlı



**1973-cü ildə Gürcüstanın Marneuli rayonunda ziyali ailəsində anadan olan Pərvanə Hacıyeva 1979-1988-ci illərdə Sulaveri rus orta, 1988-1989-cu illərdə isə Gəncə şəhərində tam orta məktəblərində oxumuşdur.**

1991-ci ildə Bakı Dövlət Universitetində (BDU) tibbi biologiya ixtisası üzrə təhsil alan və bu təhsil ocağını 1996-ci ildə uğurla bitirən gənc Pərvanə Hacıyeva AMEA-nın Molekulyar Biologiya və Biotexnologiya İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır. Burada o, professor Ralfrid Həsənovun rəhbərliyi altında elmi tədqiqat layihələri üzərində işləyir. Elm və təhsilə maraq göstərən P.Hacıyeva çox keçmir ki, 1998-ci ildə İtaliyanın Florensiya şəhərində yerləşən Nüvəmaqnit Rezonansı Mərkəzində doktoranturaya daxil olur və məşhur alim, professor İvano Bertininin rəhbərliyi altında metal proteinlərin struktur-bioloji araşdırılması ilə məşğul olur.

Doktoranturada təhsil aldığı dövrdə onun müxtəlif elmi məqalələri işıq üzü görür.

2000-ci ildə "Təbii və modifikasiya olunmuş sitoxromların struktur və çeviklik xassələri" mövzusunda hazırladığı dissertasiya işini uğurla müdafiə edir. Alimin dissertasiyasının üçmərhələli strukturunun birinci mərhələsi sitoxromların biotexnoloji üsullarla böyük miqdarda əldə edilməsi, ikinci mərhələsi nüvə maqnit rezonans spektroskopiya metodu vasitəsi ilə onların strukturunun hesablanması üçün vacib olan yeni eksperimental metodların tətbiqi və ölçülərin aparılması, üçüncü mərhələsi isə bu ölçülərin bioinformatika metodları vasitəsilə zülalın strukturu və çevikliyinin hesablanması üçün istifadə edilməsindən ibarət olur. Bununla da Pərvanə Hacıyeva yeni bir uğura imza atır və Florensiya Universitetində kimya sahəsi üzrə PhD elmi dərəcəsini qazanır. Həmçinin dissertasiyanın nəticələrini beş müxtəlif məqalə şəklində beynəlxalq elmi jurnallarda çap etdirir. O, ilk dəfə sitoxromların strukturu, onların funksiyası ilə bağlı olan elmi açıqlamalarını geniş ictimaiyyətə bəyan edir.

2001-ci ilin səkkiz ayını Florensiya şəhərinin Kimya fakültəsinin nəzdində olan Nüvəmaqnit Rezonansı Mərkəzində elmi işçi kimi çalışır.

2001-2002-ci illərdə elmi fəaliyyətini Münhen şəhərində yerləşən Maks Plank Elmi Tədqiqat Cəmiyyətinin Psixiatriya İnstitutunda davam etdirən P.Hacıyeva qocalma prosesində hüceyrələrdə baş verən dəyişikliklərlə bağlı tədqiqatlar üzərində işləyir. Alimin əsas diqqəti sinir sistemində fəaliyyət göstərən neyronların qocalması prosesinə yönəlir. Qeyd edək ki, neyronlar özlərinə məxsus hüceyrə quruluşlarına və funksiyalarına görə insan orqanizmində olan başqa hüceyrələrdən çox fərqlənirlər. Məhz buna görə neyronlarda qocalma prosesində baş verən dəyişiklər də qeyri-adidir və onların molekulyar mexanizmlərinin çox hissəsi hələ də elmə məlum deyil. Son nəticə olaraq indiyədək apardığı elmi tədqiqatlar sayəsində alim müəyyən edir ki, bu neyronlarda müxtəlif adaptasiya mexanizmləri qocalma prosesinə qarşı mübarizə aparır. Bu, oxidativ stressə qarşı maddələr mübadiləsində dəyişiklər nəticəsində baş verir. Beləliklə, professor bir tərəfdən farmakoloji üsullarla maddələr mübadiləsini tənzimləməklə, digər tərəfdən antioxidativ maddələrlə neyronların funksiyasını artıraraq, insan beyninin qocalması prosesinin qarşısını almağa çalışır.

Həvəs və axtarışa, yorulmaq bilməyən enerjiyə malik olan P.Hacıyeva 2002-ci ildə Almaniyanın Mayns Tibb Universitetinin Fizioloji Kimya İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır, 2006-cı ildə isə adıçəkilən universitetin Patobiokimya İnstitutunda Oksidativ stress, antioksidantlar və mitofagiya adlı elmi işçi qrupunu yaradır. O, rəhbərlik etdiyi qrupda biokimya sahəsində mövcud problemlərin dərindən araşdırılması ilə bərabər, müxtəlif istiqamətlərdə görülən elmi layihələrin koordinasiyasına dəstək verməklə yanaşı, tələbə və doktorant işlərinə rəhbərlik edir.

2016-cı ildə alim biokimya sahəsi üzrə hazırladığı dissertasiya işini Mayns Tibb Universitetində müdafiə edərək "biokimya üzrə venia legendi" (dr.chem. et med.habil) elmi adına layiq görülür. O, həmin universitetin Tibb fakültəsində biokimya üzrə professor adını qazanır və hüceyrənin adaptasiya və metobalizmi üzrə elmi tədqiqat qrupunu yaradır. Xüsusi məsuliyyəti ilə seçilən alim, tələbələrə müalicə işi fənni üzrə mühazirələr oxuyub, biologiya, kimya, əczaçılıq fənlərindən yerinə yetirilən elmi praktiki işlərə rəhbərlik də edir.

Qeyd etmək istərdik ki, uzun illər Almaniyada elm sahəsində çalışan həmvətənlilərimiz arasında Pərvanə Hacıyeva professor adına layiq görülən ilk azərbaycanlıdır. Almaniyanın Hamburq Universitetinin Tibb fakültəsinin biokimya üzrə professoru olan Pərvanə Hacıyeva eyni zamanda Alman Mitoxondrial Xəstəliklər Birliyində Mütəxəssislər qrupunun (mitoNET) və Biokimya və Molekulyar Biologiya Cəmiyyətinin (GBM) üzvüdür. Hazırda o, tibb sahəsində müxtəlif beynəlxalq jurnalların rəyçisi olaraq çalışır. İngilis, alman, italyan və rus dillərini mükəmməl bilən alim elmi yaradıcılığı ilə yanaşı, poliqlot kimi də ad qazanmışdır.

Biz, azərbaycanlı professor Pərvanə Hacıyevanın vaxtilə BDU-nun məzunu və AMEA-nın elmi işçisi olaraq hər yerdə Vətənimizin adını doğrultması ilə fəxr duyuruq, ona elmi axtarışlarında uğurlar diləyirik.

**Sərvan KƏRİMOV**

Elm 2020.- 14 fevral.- S.12.